29 oktyabr / 2020

# PAŞAM

*(Ordumuzun 2016-cı ilin aprel döyüşlərində göstərdiyi şücaətlərə görə Müdafiə nazirimiz general Zakir Həsənova ithafən, hörmətli şairimiz Mübariz Məsimoğlunun eyniadlı şeirindən təsirlənərək yazıram).*



***Rafiq MEHDİ***

Yerdə qalmayacaq Şəhidin qanı,
And icib, söz verib xalqına Paşam.,
Hər şəhid yerinə beş-on dığanı,
Atacaq cəhənnəm oduna, PAŞAM!
Füzuli, Cərayil, Ağdam gözləyir,
Zəngilan, Qubadlı bizi səsləyir,
Kəlbəcər, Lacın da daha bəs deyir,
Düşmən qalmayacaq Şuşamda, PAŞAM!
İllərlə toplayıb bütün varını,
Guya yaratmışdı "istehkamını".
Üç-dörd gün bəs etdi, düşmən qanını,
Tökərək göstərdi zorunu, PAŞAM!
Ordumuz düşməni beləcə əzdi,
Bükülmüş qəddimiz, bir az düzəldi.
Qələbə qazanmaq necə gözəldi?
Gücün tükənməsin qolunda, PAŞAM!
Müzəffər ordumuz hücum edərək,
Dilbər Qarabağı azad edəcək.
Böyük Qələbəni bayram edəcək,
Pənahxan qalası Şuşada Paşam.